

# GENDER TƏHLİLİ

## QISA İCMAL

## GENDER TƏHLİLİ NƏDİR?

Gender təhlili ehtiyaclar, rollar, cəmiyyət, ailə, resurslara çıxış, və qərar qəbulunda, siyasət həyatında, iqtisadi və sosial proseslərdə iştirak baxımından qadın və kişilər arasında mümkün fərqləri araşdırır (Avropa Komissiyası, 1998-ci il).

Gender təhlili üç əsas prinsipə əsaslanır:

1. **KONTEKST - NƏ**
   Gender təhlili bu kateqoriyalar daxilində qadınlar, kişilər və alt qruplar arasında hansı fərqlərin olduğunu aşkar etməlidir.

2. **SƏBƏBLƏR- NİYƏ**
   Qadın və kişilər arasında fərqin hansı kontekstdə formalaşdığını öyrəndikdən sonra bu fərqlərin nə üçün mövcud olduğunu müəyyən etməliyik. səbəblər məlum deyilsə, əlavə araşdırma aparılmalıdır.

3. **NƏTİCƏLƏR**
   Gender təhlilində kişilər və qadınlar arasındakı fərqlərin nəticələri təhlil edilməlidir. Bu fərqlər qadınlara, kişilərə və bu kateqoriyalar daxilindəki altqruplara necə təsir edir? Onlar kişilərlə müqayisədə qadınlar, qızlarla müqayisədə oğlanlar üçün və əksinə baryerlər yaradırmı? Elə isə bu baryerlər hansılardır?

**Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilib. Nəşrin məzmununa görə yalnız NIRAS məsuliyyət daşıyır və məzmun Avropa İttifaqının mövqeyini əks etdirməyə bilər.**

## Aİ GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATLARA DƏSTƏK XİDMƏTİ NƏDİR?

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti[1] tələb əsasında Şərq Tərəfdaşlığı ölkələrindəki hökumətlərə və Aİ nümayəndəliklərinə[2] qadın və kişilər üçün effektiv nəticələrin təmin edilməsi məqsədilə gender aspektlərini siyasətlərin formalaşdırılması prosesinə tətbiq etməkdə və islahatların icrasında yardım edir

## HƏDƏF AUDİTORİYA

Bu icmal Şərq Tərəfdaşlığı ölkələrində və onların sərhədlərindən kənarda insanlara faydalı olacaq hüquqi akt, siyasət, proqram və layihələri hazırlayan hər kəs (dövlət müəssisələrinin əməkdaşları, Aİ nümayəndəlikləri, vətəndaş cəmiyyəti təşkilatları və başqa beynəlxalq inkişaf tərəfdaşları) üçün yararlı ola bilər. O həmçinin bu ölkələrdə qanunvericilik bazasını, siyasətin və layihələrin formalaşdırılması sahələrini araşdıran və/və ya bunları işıqlandıran KİV nümayəndələri, elmi dairələrin nümayəndələri və tədqiqatçılar üçün faydalı ola bilər.

[1] Belarusda İslahatlara Dəstək Xidməti yalnız Aİ nümayəndəliyinə yardım təmin edir.
[2] Şərq tərəfdaşlığı Aİ, ona üzv dövlətlər və altı Şərqi Avropa tərəfdaş ölkəsinin cəlb olunduğu birgə təşəbbüsdür: Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

**Aİ Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidməti**

İcraçı

NIRAS

Gender təhlilinin məqsədi həm qadınlara, həm kişilərə xitab edən qanun, siyasət, proqram və layihələrin hazırlanması üçün sübutların toplanmasından ibarətdir. Bu mexanizmlərin öz əsas funksiyalarını (hədəf qruplarının ehtiyaclarının təmin edilməsi) effektiv şəkildə yerinə yetirə bilməsi üçün, kişilər, qadınlar və bu kateqoriyalar daxilindəki altqrupların üzləşdikləri fərqlər, baryerlər nəzərə alınmalı və aradan qaldırılmalıdır. Beləliklə, qanun, siyasət, proqram və layihələr genderə həssas xarakter qazanır və ya daha da yaxşısı gender münasibətlərini dəyişə bilir.

Gender həssas yanaşma vasitəsi ilə qanun, siyasət, proqram və/və ya layihələrdə müxtəlif qadın və kişi qruplarının ehtiyac və perspektivləri nəzərə alınır, bu qruplar arasında mövcud fərqlər və onların qarşılaşdıqları baryerlər tanınır

Gender transformativ dedikdə, kişi və qadınların, oğlan və qızların müəyyən edilən fərq və baryerlərin yaranmasına səbəb olan rol və öhdəliklərinin dəyişdirilməsinə səyin göstərilməsi nəzərdə tutulur. Son məqsəd qadın və kişi altqruplarının hər hansı siyasət və ya prosesə bərabər qaydada töhfə verə və onlardan yararlana bilməsidir. Gender təhlilinin əsas məqsədləri aşağıdakılardır:

- Bütün sahələrdə qadınlar, kişilər və bu kateqoriyalar daxilindəki altqruplar arasındakı fərqləri və baryerləri müəyyən etmək.
- Müxtəlif qadın və kişi qruplarının siyasətlərdə, siyasi, iqtisadi və sosial proseslərdə iştirakının və onlardan tam yararlanmasının qarşısını alan baryerləri təsvir etmək.
- Konkret qadın və kişi qruplarının siyasət və proseslərə cəlb edilməsi ilə əlaqədar fürsətləri müəyyən etmək.
- Siyasət və proseslərin bütün müxtəliflikləri ilə kişi və qadınlar üçün bərabər dərəcədə faydalı olmasını təmin etmək.
- Gender təhlilinin gender təsirinin qiymətləndirilməsi (GIA) ilə çoxlu ortaq cəhətləri var –

Lakin GİA qanunvericilik, siyasət və ya proqramlar daxil olmaqla hər hansı planlaşdırılmış fəaliyyətin bütün sahələrdə və bütün səviyyələrdə qadınların və kişilərin həyatına təsirini qiymətləndirir. Lakin bu ikisini qarışdırmayın. Gender təhlili normal olaraq mövcud vəziyyəti qiymətləndirərkən, GIA hələ tətbiq edilməmiş və ya həyata keçirilməmiş qanunların, siyasətlərin və proqramların mümkün təsirini proqnozlaşdırmaq üçün istifadə olunur.

## GENDER TƏHLİLİ NƏ ÜÇÜN VACİBDİR?

Gender təhlili Şərq Tərəfdaşlığı ölkələrinin, insan hüquqları və gender bərabərliyi sahəsində üzərinə götürdüyü beynəlxalq sənədlər daxil olmaqla, beynəlxalq hüquqi çərçivədətanınan - ilkin şərtidir:

1. Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya (CEDAW), 1979.
2. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, 1995.
3. BMT TŞ-nin Qadınlar, Sülh və Təhlükəsizlik (QSH) üzrə 1325 saylı Qətnaməsi və BMT TŞ-nin əlavə doqquz QSH qətnaməsi.
4. 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik və onun 17 Dayanıqlı inkişaf məqsədi (DİM-lər).

Qlobal səviyyədə gender təhlilinə konkret tələblər müxtəlif BMT agentliklərinin rəhbər sənədlərində irəli sürülür. Məsələn, BMTİP-in Gender təhlilinin necə aparılmalı olduğu haqqında Direktiv qeydi konkret vəziyyətlərdə gender təhlilinin aparılması üçün konkret addımlar tövsiyə edir, tələblər müəyyən edir və bütün BMTİP təşəbbüslərinə tətbiq edilir.

Avropa İttifaqında (Aİ) gender təhlili haqqında müddəalar 2020-2025-ci illər üzrə Xarici əlaqələrdə Gender bərabərliyi və qadınların səlahiyyətlərinin genişləndirilməsi üzrə Aİ Fəaliyyət planında müəyyən edilir (GAP III). III GAP Aİ tərəfindən maliyyələşdirilən bütün xarici proqramların tərtibatında minimum standart kimi "Gələcək fəaliyyət(lər) üçün qərar qəbulu prosesində istifadə edilmək məqsədilə yenilənmiş gender təhlilinin aparılmasını və istifadəsini" tələb edir. Bu, gender bərabərsizliyinin, gender əlamətinə görə ayrı-seçkiliyin sistemli səbəblərinin müəyyən edilməsini, eləcə də onlara qarşı tədbirlərin görülməsi üçün gender təhlilindən istifadəni tələb edir.

Şərq Tərəfdaşlığı ölkələrinin normativ-hüquqi bazalarında da gender təhlilinə dair müddəalar mövcuddur. Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna gender bərabərliyi haqqında qanunlar və dövlət hakimiyyəti orqanlarından gender təhlilinin aparılmasını tələb edən başqa hüquqi aktlar qəbul etmişlər. Son onilliklərdə onlar gender siyasətlərini (gender bərabərliyi üzrə milli fəaliyyət planları) gender təhlillərin nəticələri əsasında icra edirlər.

Gender təhlilinin üstünlükləri aydındır. Bu təhlil siyasətlərin hazırlanmasına görə məsul dairələrə siyasi, iqtisadi və sosial həyatın bütün sahələrində, siyasət və proqramların hazırlanmasında, icrasında, monitorinqində və qiymətləndirməsində qadın və kişilərin ehtiyaclarını, maraqlarını və təcrübələrini nəzərə almaqda kömək edir.

## GENDER TƏHLİLİNİ NECƏ APARIRIQ?

İdeal hallarda gender təhlili siyasət və ya proqramın müəyyənləşdirmə və ya layihələndirmə mərhələsində həyata keçirilir və beləliklə, əldə edilən qənaətlər siyasət və ya proqramın formalaşdırılmasında nəzərə alına bilir. Gender təhlili bir qayda olaraq aşağıdakı addımları əhatə edir:

1. **Addım 1**: Siyasətin/proqramın layihələndirmə mərhələsində gender ekspertizasının aparılmasının təmin edilməsi. Bu adətən gender məsələləri üzrə mütəxəssislərin siyasət və ya proqramı planlaşdıran/hazırlayan işçi qruplarda və ya orqanlarda iştirak etməyə dəvət edilməsini nəzərdə tutur. Gender məsələləri üzrə mütəxəssislər qadın və kişilərin və bu kateqoriyalar daxilindəki altqrupların siyasətin/proqramın hazırlandığı kontekstdə mövcud ehtiyacları haqqında məlumatlı olmalıdırlar. Onlar həmçinin bənzər siyasətlər/proqramlar yerli və beynəlxalq səviyyələrdə layihələndirilən, hazırlanan və icra edilən zaman belə ehtiyacların necə nəzərə alındığı haqqında bilik və təcrübəyə malik olmalıdırlar.

2. **Addım 2**: Əsas sosial-iqtisadi, siyasi və humanitar sektorlar üzrə cinsə görə ayrılmış statistik məlumatları toplayınBelə statistik məlumatlar hər il milli statistika idarələri və ya başqa agentliklər tərəfindən təmin edilir. Daha bir vacib mənbə dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının (QHT-lər), elm və tədqiqat institutlarının və beynəlxalq inkişaf tərəfdaşlarının konkret gender qiymətləndirmələri üzrə əldə etdikləri qənaətlərdir.

3. **Addım 3**: Müəyyən sahədə məlumat yoxdursa, mümkün olduqca konsultasiyalar (fokus qrupları, qadın və kişilərlə müsahibələr və s.) və sürətli qiymətləndirmələr/sorğular həyata keçirin..

4. **Addım 4**: Təhlili diqqətinizi bu suallar və ya ən müvafiq suallar üzərində cəmləşdirməklə aparın:

| **Vəziyyət** | **İqtisadiyyat və rollar** | **Resurslar** | **Səlahiyyət** | **Benefisiarlar** |
|---|---|---|---|---|
| Qadın və kişilərin rol və cavabdehlikləri ilə əlaqədar hansı norma və dəyərlər mövcuddur?<br><br>Qadınlar və kişilər, oğlanlar və qızlar hansı təlim və təhsil səviyyəsinə malikdirlər?<br><br>Qadınlar və kişilər və bu kateqoriyalar daxilindəki altqruplar arasında resurslara, səlahiyyətlərə, təhsilə, əmək bazarına, xidmətlərə və sairə çıxış baxımından fərq mövcuddurmu?<br><br>Genderlə əlaqədar hansı inanclar, təsəvvürlər və stereotiplər mövcuddur? | Kim nəyə nəzarət edir?<br><br>Kimin nəyə çıxışı var?<br><br>Qadınlar, kişilər və bu kateqoriyalar daxilindəki altquplar arasında hər hansı potensial iqtisadi fərq mövcuddurmu? | Kimin resurslara çıxışı var (məsələn, maliyyə, texnologiya, informasiya, xidmətlər, məkan və vaxt resursları və s.)?<br><br>Resurslara kim nəzarət edir?<br><br>Resurslardan kim faydalanır?<br><br>Təhsilə, texniki biliklərə və ya bacarıqlarının müasirləşdirilməsinə kimin çıxışı var? | Ev təsərrüfatı, dövlət sektoru və korporativ sektorda qərar qəbulu prosesi necə baş verir?<br><br>İqtisadi qərarların qəbulunda qadınların rolu nədən ibarətdir?<br><br>Qadınlar siyasi proseslərdə necə iştirak edirlər? | Siyasətlər və ya proqramlar qadın və kişilərin praktik və strateji ehtiyaclarını nə dərəcədə nəzər alır?<br><br>Gender məsələlərinin siyasət və proqramların formalaşdırılmasına, hazırlanmasına və icrasına təsiri nədən ibarətdir? |

Gender təhlilinin nəticələri aşağıdakıların təsvir edildiyi qənaətlərlə icmallaşdırılır:

1. Müəyyən sahələrdə gender fərqləri və bərabərsizlikləri.
2. Qadınların, kişilərin və bu kateqoriyalar daxilindəki altqrupların siyasətlərə töhfə vermələrinin və onlardan yararlanmalarının qarşısını alan baryerlər.

Növbəti mərhələdə bu qənaətlər əsasında bütün sahələrə gender mainstrimingin tətbiqi haqqında təkliflər, müəyyən edilmiş fərqlərin aradan qaldırılmasına və baryerlərin aşılmasına yardım edəcək konkret strategiyalar, addımlar və müdaxilələr hazırlanır.

## QABAQCIL TƏCRÜBƏLƏR

Gender təhlili Aİ tərəfindən maliyyələşdirilən EU4Gender Bərabərliyi naminə İslahatlara Dəstək Xidmətinin ayrılmaz hissəsidir. Şərq Tərəfdaşlığı ölkələrində yaxın dövrlərdə həyata keçirilmiş qabaqcıl təcrübələr:

- 2021-ci ildə Şərq Tərəfdaşlığı ölkələrində Aİ nümayəndəlikləri üçün Fəaliyyət sənədlərinin hazırlanması mərhələsində gender təhlilinin aparılması. Gender təhlili qadın və kişilərin müxtəlif sahələrdə üzləşdikləri aşağıdakı kimi konkret baryerləri müəyyən etməyə kömək etmişdir:
    - Qadınların sahibkarlıq sahəsində aşağı səviyyədə təmsil edilməsi.
    - Əməyin ödənilməsində fərq, əmək bazarında qadınlara qarşı ayrı-seçkilik, qadınların yüksək ödənişli vəzifələrdə, o cümlədən elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) sahələrində aşağı səviyyədə təmsil olunması, kişilərin isə təhsil, səhiyyə və sosial xidmətlərlə əlaqədar peşələrdə aşağı səviyyədə təmsil olunması.
    - Gender stereotiplərinin və gender əsaslı zorakılığın yayılma dərəcəsi.
    - Qadınların dövlət siyasəti və qərar qəbulu sahələrində aşağı səviyyədə təmsil olunması.
    - Kişilərin orta uzunömürlülük həddi qadınlarla müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır.
- Ukraynada müharibənin nəticələrinin gender təhlili. Bu, bütün müxtəliflikləri ilə qadın və kişilərin bərpa proseslərində bərabər iştirakını və onlardan bərabər səviyyədə yararlanmasını təmin etmək məqsədilə gender aspektinin 24 fəaliyyət sahəsində 2022-ci il üzrə Ukrayna Bərpa planına tətbiq edilməsi haqqında tövsiyələrin hazırlamasına imkan yaratmışdır. Dəstək Xidmətinin mütəxəssisləri qadınların qərar qəbulu, sülh və təhlükəsizlik proseslərində, sahibkarlıq sahələrində və yüksəködənişli peşələrdə aşağı səviyyədə təmsil olunması, kişilərin uşaqlara və başqa ailə üzvlərinə qulluğa məhdud səviyyədə cəlb olunması, silahlı münaqişə və köçkünlük səbəbindən qadın və qızların üzləşdikləri təhlükəsizlik riskləri kimi qadın və kişilər üçün xarakteristik baryerlərin müəyyən edilməsinə cəlb edilmişlər. Bu baryerlər bərpa proseslərində nəzərə alınmalı olan məsələlər kimi Bərpa planına daxil edilib.

## FAYDALI KEÇİDLƏR

- AİGender Bərabərliyi naminə İslahatlara Dəstək Xidmətinin layihə səhifəsi
- Gender bərabərliyi kitabxanası
- Aİ-nin Şərq qonşuları veb-saytı

GENDER BƏRABƏRLİYİ KİTABXANASINA BAŞ ÇƏKİN

© Avropa İttifaqı 2023